

# Həsrətin sonu görünməz deyil

## (“Duyğular” silsiləsindən)

*İntiqam Mehdizadə*

**Vəliyyəddin İsmayılov Kəlbəcər mahalının, kəlbəcərlilərin kimliyini, necəliyini, bu yurdun təriflərə, tostlara, bəzəmələrə sığışmayan ülviyyətini Dədə Şəmşir, Bəhmən Vətən oğlu, Şücaət, Əli Qurbanov, Allahverdi Qəmkeş, Yusif, Əlqəmə, Əyyub, Yaqub, Məmməd Aslan, Kifayət Umud qızı kimi yaddaşıma əbədi həkk edən, onu şirin xatirələr hesabına daha da zənginləşdirən, özünə şair deməsə də şair qəlbli, hətta dözməyib bir sıra kəlbəcərlilər misallı aradabir qələmə sarılıb yazdığı şeirləriylə heç də adlı-sanlı şairlərdən geri qalmayan, mən deyərdim igid kəlbəcərlilərdəndir.**

### *Sovetin bərk gedən çağlarında*

rayon Nəzarət Komitəsinin sədri işlərkən vacib işlərindən vaxt tapıb Kəlbəcər sevdasıyla bu gözəl məkana səfər edən, ezamiyyətə gələn qonaqları da nəzərdən qaçırmır, bəzi rəhbər işçilər kimi yalnız quruca sözlərlə qarşılayıb yola salmır, həm də onlarçın açdığı təmənnasız dost süfrələri başında Kəlbəcərin bənzərsiz özəllikləri, ən çox da bu yerin yazıb yaradan, sazlı-sözlü insanları barədə ürəyinin ən isti güşlərində yurd salmış sözləri açıb-çözələyir, nəinki kəlbəcərli el şairlərinin, rəsmi dövlət qulluqçusu olsa da özünün də düzüb-qoşduğu şeirləri - qoşma, bayatı, təsnifləri qonaqlara ərməğan edərdi. Elə ötən əsrin 80-ci illərinin əvvəlində məni də həmkarım şair Ağalar Mirzəni də beləcə qarşıladı Vəliyyəddin müəllim. Biləndə ki, buraya ana radiomuzun məşhur ”Bulaq” verilişinin xəttiylə ezamiyyətə gəlmişik, birbaşa ona aid olmasa da işini-gücünü bir yana qoyub bizi bir növ ”himayəsinə” götürdü.Ezam günlərimiz başa çatmaq üzrəydi. ”Bulaq” proqramının bir sıra sayları üçün küllü miqdarda fakt toplamış, bu yerin saz-söz sənətkarlarının səslərini lentə almışdıq.

Bakıya yola düşməyə hazırlaşırdıq ki, Vəliyyəddin müəllim sürücüsü ilə bahəm xidməti ”Qaz 69” maşınıyla yanımızda peyda oldu.

Sizi belə buraxan deyiləm, dedi, şey-şüyünüzü yığışdırın, sizi elə bir yerə aparacam ki, Kəlbəcərə bir daha vurulacaq, onun dahiyanə mənzərlərinə hayıl-mayıl olacaqsınız.Dedim ay Vəliyəddin müəllim, şəxsən mən dəfələrlə Kəlbəcərdə olmuş, Taxta yaylağını, Humay qayasını, Ceyran bulağını, İsti suyu görmüşəm.

Özüm də elə bir növ Kəlbəcərə bənzər İsmayıllıdanam. Bunlar bəs deyilmi? Qayıtdı ki, bəs Alagöl yaylağını necə, görmüsən? Dedim yox. Dedi hə, bax sizi ora aparacam. Gedib oranın bir dərəsi var, orada ancaq böyüklər üçün bəslənən bir qoyun kəsəcəyik, yalxı kəklik otuyla yemlənən o qoyunun ətindən dadmasaz sizi buraxan deyiləm.

Həm də o yerin bulağı başında əyləşibən ağız-ağıza verib şeirləşərik. Baxarıq siz çox şeir bilirsiz, ya mən, di haydı, əyləşin maşına...

Budur, yalnız dağ kəllərinin, ayıların, canavarların, cüyürlərin oylağı olan bir məkan-qonşu Qərbi Azərbaycanın Zod kəndiylə sərhəddə cənnətlər cənnəti bir yer, torpağında kəklik otundan savayı özgə bitki gözə dəyməyən, sulu suçaqlı, şişqayalı, şır-şır bulaqlı bir oylaq, bir yaylaq guşəsi. Buraya gətirən yollarsa...



### *Hələ başlanğıcda*

**zirvələrə aparan daşlı-kəsəkli, torpağı görünməz yollara baxanda bu səfərin çox çətinliklə başa gələcəyini, bəlkə də baş tutmayacağını düşünürdük. Amma Vəliyyəddin müəllimin sürücüsünün vəsfə gəlməz məharəti bizi bu fikirdən yayındırdı. Sən demə bu cavan oğlan hər daşa, hər qaya parçasına, hər tinə, aşırıma, yoxuşa elə bələddir ki, hətta o yerləri gözüyumlu keçə bilər.**

Bu da Vəliyyəddin müəllimin heyranlıqla təsvir elədiyi Alagöl yaylağı, yalnız kəklik otu bitirən o dərə, bir də ki, ətindən, yunundan, quyruğundan belə kəklikotu ətri gələn qoyun sürüsü, bir də bu yabanı məkanın ayısından, canavarından, digər yırtıcılardan qorxmadan sürünü göz-bəbəyi kimi qoruyan, üstəlik də şair qəlbli cavan çoban. Az sonra yaşıl otlar üzərində süfrə açılır, ortaya o məşhur kəklik otu ətri verən tikə kabablar gəlir. Soyuq bulaq suyu, ”Qaz 69”-un yük yerindən çıxarılıb gələn pendir - lavaş. Bir də Vəliyyəddin müəllimin elə o təamlar qədər şirin, bəzən də duzlu-məzəli söhbətləri.Üstəlik də özünü şair adlandırmayan bir dövlət qulluqçusunun zaman-zaman qələmə alıb dəqiqliklə yaddaşına köçürdüyü torpaq ətirli şeirlər. Ağalarla mənim də ard-ardınca söylədiyimiz şeirlərə sürücümüzlə çoban da heyranlıqla dinşək kəsilir, bir növ xumarlanırlar...

Sonra illər ötdü. Başımızın üzərini nakor qonşularımızın fitnə-fəsadıyla törədilmiş müharibə kəsdirdi. Vəliyddin İsmayılovun da həmyerliləri kimi qaçqınlıq, didərginlik, köçgünlük illəri başladı. Bir sıra yerliləri təki o da Bakıya pənah gətirdi. Vaxtı ilə çoxlarına göstərdiyi xidmətlər, yaxşılıqlar yerdə qalmadı.

Paytaxtımızdakı ”Azərsu ASC ” nin rəis müavini oldu. Mən həhü eləyib onu tapınca o qabağa düşdü, telefon açıb məni tapdı, görüşə çağırdı ... Yox! Həminki Vəliyəddin deyildi. Əzilmiş, sınıxmış, rəngi avazımışdı. Deyib gülürdüsə də içində qalaqlanmış dərdin, ələmin, yurd həsrətinin öhtəsindən gələmmir, göz yaşlarının qabağın alammırdı.

### *Şeirlərisə qan ağlayırdı*

Nə yazıramsa deyirdi, Kəlbəcər həsrətindən yan ötüşə bilmirəm. Allah bilir bu həsrət nə vaxtacan davam edəcək. Nə Bakısına sığınandan sonra təyin olunduğu babat vəzifəsi, nə nisbətən rahat ev eşik sahibi olması onun Kəlbəcər həsrətini ovundurmur, əksər yurddaşlarının dözülməz sosial-məişət problemləri onun dərd-sərini səngitmirdi. Ancaq nə yaxşı ki, bütün bunların müqabilində zərif bir inam hissi də varlığını tərk etmir, ara-sıra o hissin işığından həsrətinin üzərinə parlaq şəfəq cilənir, belə məqamlarda üzü gülür, qaş-qabağı açılırdı.

**Bəli, həsrət də sonsuz deyil.Yetər ki, həsrətində olduğun VÜSALA yetişmək üçün dayanmadan, durmadan, yorulmadan çarpışasan. İşinlə, əməlinlə, düşmənlə mübarizə yollarını axtarıb tapmağınla.Başlıcası isə dost-doğmaca sənətinə, peşənə olan inamını, sədaqətini qorumaqla, xalqına, vətəninə layiqli vətəndaş olmağınla. Zənn edir, inanıram ki, Vəliyyəddin İsmayılov taleyin, bəxtin onun üçün müəyyən elədiyi o çətin, o əzablı yolda özünü itirməyəcək, səbrlə, təmkinlə, inadla o yolun ağına düşüb gedəcək, Kəlbəcər torpağında qərar tutub oradanca ağaran dan yerlərinə, doğacaq günəşə, qızaran üfüqlərə baxacağı günlərə olan inamını itirməyəcək !**

Ədalət 2019.- 16 noyabr.- S.13.